# Kitabxanadan məmnunluq sorğusunun təhlili

**Tarix :**18.04.2024

Qərbi Kaspi Universitetində Keyfiyyət Təminatı Mərkəzinin əməkdaşları tərəfindən tələbələr arasında kitabxana xidmətlərindən məmnunluq səviyyəsini müəyyən etmək məqsədilə sorğu keçirilmişdir. Sorğuda ümumilikdə 115 tələbə iştirak etmişdir. Suallar üzrə ümumiləşdirilmiş nəticələr aşağıda təqdim olunur:

## 1. Xahiş edirik kitabxana xidmətlərindən razılıq səviyyənizi qeyd edin.




Kitabxana xidmətlərindən razılıq üzrə 61 nəfər (53%) "razıyam" və 31 nəfər (27%) "olduqca razıyam" seçimini edib.

## 2. Xahiş edirik kitabxana xidmətlərini aşağıdakı meyarlar üzrə qiymətləndirin.




Digər sualda kitabxana xidmətləri ayrı-ayrılıqda ”Əlçatanlıq”, "Təlimlərin təşkili", ”Kitabxana ehtiyatı", Elektron Kitabxana interfeysi", ”Kitabxana heyətinin dəstəyi" üzrə qiymətləndirilib. Cavablar arasında ”Son dərəcə məmnunam" və ”Məmnunam" (40-50%) ilə üstünlüyü saxlamışdır.

- **Əlçatanlıq**- Son dərəcə Məmnunam (40%) - Məmnunam (60%)
- **Təlimlərin təşkili** - Son dərəcə Məmnunam (31%) - Məmnunam (44%)
- **Kitabxana heyəti** - Son dərəcə Məmnunam (38%) - Məmnunam (52%)
- **Elektron kitabxana interfeysi** - Son dərəcə Məmnunam (38%) - Məmnunam (46%)
- **Kitabxana heyətinin dəstəyi** - Son dərəcə Məmnunam (48%) - Məmnunam (47%)

**3.** Təşkil edilmiş tədbirlərin peşəkar həyatınızda müsbət təsiri olurmu?




| | **Faiz göstəricisi%** |
|---|---|
| Bəli | 45,2% |
| Xeyr | 26,1% |
| İştirak etməmişəm | 8,7% |
| Digər | 10% |

**4. Yekun olaraq kitabxana xidmətindən məmnunluğunuzu aşağıdakı şkala üzrə qiymətləndirin.**




Tələbələrin kitabxana xidmətlərindən məmnunluğu 1 və 10 bal arasından azdan çoxa doğru, yəni, 1- heç məmnun deyiləm, 10- çox məmnunam kimi qiymətləndirilməsi istənilir. Şkalanın yüksək göstəriciləri, yəni, 8-9-10 müvafiq olaraq 19.1%; 13.9%; 30.4% ilə total 63.4% təşkil edir, müsbət rəylər çoxluq təşkil edir.

**5. Xahiş edirik kitabxana xidmətləriylə bağlı təklif  və iradlarınızı qeyd edin.**

İstifadəçilərin əksəriyyəti kitabxana xidmətlərindən razılığını bildirmiş, əməkdaşların operativ və diqqətli yanaşmasını yüksək qiymətləndirmişdir. Xidmətlərin əlçatan və faydalı olduğu qeyd olunmuşdur.

---

Təklif və İradlar

1. Səssizliyin qorunması: Bəzi istifadəçilər kitabxanada səs-küy problemini vurğulamışdır.
2. Kompüterlərin yenilənməsi: Texniki avadanlıqların sürət və keyfiyyət baxımından təkmilləşdirilməsinə ehtiyac vardır.
3. Kitab fondu: Xüsusilə Azərbaycan dilinə tərcümə olunmuş və İKT sahəsinə aid kitabların artırılması təklif olunur.
4. Kitabların evə verilməsi: Kitabların müvəqqəti olaraq oxuculara verilməsi imkanının yaradılması arzu olunmuşdur.
5. İnfrastruktur: İçərişəhər filialının təmirə ehtiyacı və ümumilikdə daha geniş məkanın təmin olunması tövsiyə olunmuşdur.